**Güləşçilərimizin qızıl qələbəsi**

XXX London Yay Olimpiya Oyunlarında 10 medal qazanan Azərbaycan idmanzıları idman tariximizdə şərəfli səhifə azaraq respublikamızın kğtləvi idman ülkəsinə zevrildiyini dğnyaya nğmayiş etdirdilər. Olimpiya oyunlarında iştirak edən idmanzılarımız arasında flaqman isə gğləşzilərimiz oldular. Azərbaycan pəhləvanları yğksək nəticə güstərərək 7 medal qazanmaqla ülkəmizin idman tarixinə qızıl səhifə yazdılar. Olimpiya zempionları Toğrul Əsgərov və Şərif Şərifov Londonda Azərbaycanın himnini səsləndirərək bayrağımızı ən uca zirvələrə qaldırdılar.

İlk qızıl medalın sahibi Toğrul Əsgərovun bütün çıxışları onun aşkar üstünlüyü ilə keçdi. Toğrul 1/8 finalda almaniyalı Tim Şleyherlə qarşılaşaraq birinci hissədə 2:0 hesabı ilə qalib gəldi. Növbəti 2 dəqiqə də pəhləvanımız üçün uğurlu oldu və bu dəfə rəqibini 7:1 hesabı ilə məğlub edərək 1/4 finala yüksəldi. Növbəti mərhələdə rəqibi yaponiyalı Keniçi Yumoto ilə yarışan güləşçimiz Asiya təmsilçisinə də gücünü göstərdi. İki hissənin nəticələrinə (1:0, 2:2) görə yapon pəhləvanından üstün olan güləşçimiz yarımfinala vəsiqə qazandı. Finala gedən yolda həmyerlimiz ABŞ idmançısı Koleman Skottla üz-üzə gəldi. Toğrul bu görüşdən də qalib ayrılaraq (1:0 və 4:0) adını finala yazdırdı. Nəhayət, həlledici görüşdə pəhləvanımız rusiyalı güləşçi, dördqat dünya çempionu, Avropa çempionu, Pekin olimpiadasının bürünc mükafatçısı Besik Kuduxovla üz-üzə gəldi. Hər iki pəhləvan ilk hissədə fəal olsa da, Toğrul cüzi üstünlüklə - 1:0 hesablı qələbə ilə ayrıldı. İkinci hissədə əsl əzmkarlıq göstərən Azərbaycan güləşçisi rəqibinə aman vermədi və möhtəşəm qələbə (5:0) ilə ilk qızıl medalımızı qazandı. Beləliklə, Londonda Azərbaycan bayrağı göylərə qaldırıldı, bütün dünya himnimizi dinlədi.

Digər pəhləvanımız Şərif Şərifov yarışa 1/8 finaldan qatılaraq ilk qarşılaşmada türkiyəli İbrahim Bölükbaşını mübarizədən kənarlaşdırdı. Görüşün birinci hissəsi təmsilçimizin xeyrinə başa çatdı - 3:1. İkinci hissədə türkiyəli idmançı görüşdə tarazlıq yaratmaq istəsə də, buna nail ola bilmədi. Bu dəfə də 5:3 hesabı ilə qələbə qazanan idmançımız növbəti mərhələyə yüksəldi. 1/4 finalda Şərif ABŞ güləşçisi Ceyk Herberti ilə görüşdü və idmançımız ilk iki döyüşündən fərqli olaraq, bu dəfə daha yaxşı güləşdi. Birinci hissədə 4:1 hesabı ilə qələbə qazanan təmsilçimiz ikinci hissədə 6 xal öndə olduğu üçün vaxtından əvvəl qalib elan edildi. İdmançımızın yarımfinalda rəqibi iranlı Nasir Ləşgəri oldu. Kifayət qədər çətin keçmiş görüşün birinci hissəsi Şərifin 1:0 hesablı qələbəsi ilə bitsə də, növbəti iki dəqiqədə rəqib 2:0 hesabı ilə qalib gəldi. Sonuncu hissədə isə Şərif qələbəyə layiq olduğunu sübut etdi - 2:1.

Finalda Şərifin rəqibi Puerto-Rika nümayəndəsi Yusept Espinal oldu. Təmsilçimiz çempionluq məsələsini elə ilk hissədə həll etdi - 5:1! İkinci hissə formal xarakter daşısa da, azərbaycanlı pəhləvan ikinci hissəni də qələbə ilə başa vuraraq (2:0) ölkəmizə ikinci qızıl medalı qazandırdı.

Olimpiadanın əvvəlki günlərində keçirilən yarışları da güləşçilərimiz üçün uğurlu keçmişdir. Olimpiya Oyunlarında 55 kiloqram çəki dərəcəsində yarışan Rövşən Bayramov 1/16 final mərhələsində rusiyalı Minqiyan Semyonov, 1/8 finalda amerikalı Tomas Manqo Spenser, 1/4 finalda çinli Li Şujin, yarımfinalda Koreya Respublikasının təmsilçisi Qyunjin Çoi üzərində qələbə qazanaraq finala yüksəlmişdir. Finalda iranlı Məhəmməd Soryan ilə qarşılaşan pəhləvanımız cüzi fərq ilə uduzaraq ölkəmizə gümüş medal qazandırmışdır.

Qadın güləşçimiz Mariya Stadnik (48 kq) isə səkkizdəbir final mərhələsindən mübarizəyə qoşularaq ilk görüşdə ABŞ idmançısı Klarissa Çunu məğlub etmişdir. Dörddəbir final mərhələsində xanım idmançımız polşalı Nina Matkovskaya qalib gələrək yarımfinala yüksəlmişdir. Bu mərhələdə güləşçimiz ukraynalı İrina Merlenlə qarşılaşmış və inamlı qələbə qazanaraq finala çıxmışdır. Həlledici görüşdə güləşçimiz yaponiyalı Hitomi Obaraya məğlub olaraq gümüş medal qazanmışdır.

Güləşçilərimizdən ilk bürünc medalı isə yunan-Roma güləşi yarışlarda 74 kiloqram çəki dərəcəsində mübarizə aparan Emin Əhmədov qazandırmışdır. İlk dəfə yay olimpiya oyunlarında iştirak edən Emin yarışa 1/8 finaldan başlayaraq ilk rəqibi xorvatiyalı Neven Zuqaj ilə qarşılaşmanı qələbə ilə başa vurmuşdur. E.Əhmədov növbəti mərhələdə gürcüstanlı Zurab Datunaşvilini də mübarizədən kənarlaşdırmışdır. Yarımfinalda pəhləvanımız qələbə qazansa da, finala vəsiqə qazana bilməmişdir. Buna baxmayaraq güləşçimiz belaruslu Aleksandr Kikinyovu məğlub edərək olimpiya oyunlarını bürünc mükafatla başa vurmuşdur.

XXX London Yay Olimpiya Oyunlarında 55 kiloqram çəki dərəcəsində mübarizə aparan qadın güləşçimiz Yuliya Ratkeviç ilk görüşdə Yunanıstan idmançısı Mariya Prevolarakini məğlub edərək

dörddəbir final mərhələsinə yüksəlmişdir. Növbəti mərhələdə idmançımız Yaponiya güləşçisi Saori Yoşida ilə qarşılaşmada məğlub olmuşdur. Yaponiyalı idmançı finala yüksəldiyi üçün Azərbaycan güləşçisi bürünc medal uğrunda təsəlliverici görüşdə iştirak etmək hüququ qazanmışdır.

Ardıcıl olaraq Kelsi Kembell (ABŞ) və Valeriya Jolobova (Rusiya) üzərində inamlı qələbə qazanan Y.Ratkeviç, beləliklə, London Yay Olimpiya Oyunlarında bürünc medala sahib olmuşdur.

Səkkizdəbir final mərhələsindən mübarizəyə qoşulan sərbəst güləşçimiz Xetaq Qazyumov (96 kq) ilk görüşünü Ruslan Şeyxova (Belarus) qarşı keçirmişdir. Rəqib üzərində inamlı qələbə qazanan güləşçimiz dörddəbir final mərhələsində Valeri Andritsevə (Ukrayna) məğlub olmuşdur. V.Andritsev yarımfinalda Reza Mohammed Ali Yazdaniyə (İran) qalib gəlmişdir. Ukraynalı güləşçinin finala yüksəlməsi və iranlı idmançının zədələnməsi X.Qazyumovun birbaşa bürünc medala layiq görülməsi ilə nəticələnmişdir.

XXX London Yay Olimpiya Oyunlarında ölkəmizə bürünc medal qazandıran Teymur Məmmədov və Məhəmmədrəsul Məcidov da rəqibləri üzərində əzmkarlıq nümayiş etdirmişlər. 91 kiloqram çəki dərəcəsində dünya çempionatının gümüş mükafatçısı Teymur Məmmədov 1/4 finalda belaruslu Sergey Korneyevi məğlub edərək yarımfinala vəsiqə qazanmışdır. Teymur yarımfinal mərhələsində İtaliya idmançısı Klemente Russo ilə qarşılaşmışdır. Rəqibinə məğlub olan boksçumuz London Yay Olimpiya Oyunlarının bürünc medalı ilə kifayətlənmişdir.

Digər boksçumuz - Olimpiya Oyunlarında 91 kiloqramdan yuxarı çəki dərəcəsində mübarizə aparan Azərbaycan boksçusu Məhəmmədrəsul Məcidov dörddəbir finalda rusiyalı idmançı Məhəmməd Ömərovu məğlub etmişdir. Məhəmmədrəsul yarımfinalda İtaliya idmançısı Roberto Cammarelle ilə üz-üzə gəlmiş, minimal hesabla məğlub olaraq Olimpiadada bürünc medal qazanmışdır.

Londonda keçirilən XXX Yay Olimpiya Oyunlarında ağır atletlərimizin mübarizəsində Valentin Xristov uğura imza atmışdır. 56 kq çəki dərəcəsində mübarizə aparan gənc atletimiz uğurla çıxış edərək adını idman tariximizə yazdırmışdır. O, bürünc medala sahib çıxaraq müstəqil Azərbaycan tarixində ağır atletlər arasında olimpiya medalı qazanan ilk idmançı olmuşdur. Toplam 289 kq-lıq nəticəsi ona bu möhtəşəm nəticəni əldə etmək imkanı yaratmışdır.

E.CƏFƏRLİ